DOI: https://doi.org/10.36719/2706-6185/46/15-18

**Amənə Kərbalayeva**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8397-561X
kerbalayeva-amin@mail.ru

# 90-cı illərdə məktəbəqədər təhsil sahəsində problemlər

## Xülasə

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz."

(Heydər Əliyev)

Müstəqilliyin ilk illərində məktəbəqədər təhsil sisteminin vəziyyəti istər ölkənin mövcud iqtisadi inkişaf səviyyəsi, istərsə də sosial sahədə, o cümlədən əhalinin rifah halının yüksəldilməsində qarşıya qoyulan perspektiv məqsədlər baxımından qənaətbəxş hesab edilə bilməzdi. Reallıq belə idi ki, uzun müddət ərzində məktəbəqədər təhsil sistemində diqqətçəkən irəliləyişə nail olunmamış, bu sahənin inkişafına əngəl törədən problemlərin həllinə istiqamətlənmiş addımlar atılmamışdı. Mövcud olan təşkilati, hüquqi və iqtisadi mexanizmlər məktəbəqədər təhsil müəssisələrinin yeni şəraitə və bazar iqtisadiyyatının prinsiplərinə uyğun yetərincə səmərəli fəaliyyətini hələ ki, tam təmin edə bilmirdi.

***Açar sözlər:*** *Azərbaycan, təhsil, məktəbəqədər, Azərbaycan Respublikasının "Təhsil Qanunu", təhsil sahəsində islahatlar*

**Amana Karbalayeva**
Institute of History named after A.A.Bakikhanov, of ANAS
PhD in History
https://orcid.org/0000-0001-8397-561X
kerbalayeva-amin@mail.ru

# Problems in Preschool Education in the 1990s

## Abstract

"Education is an important area of society life and activity of every state, country. Society cannot develop without education."

(Heydar Aliyev)

The state of the preschool education system in the first years of independence could not be considered satisfactory either from the point of view of the current level of economic development of the country, or from the perspective goals set in the social sphere, including in improving the well-being of the population. The reality is that for a long time there was no remarkable progress in the system of preschool education, no steps were taken aimed at solving problems that impede the development of this area. With the existing organizational, legal and economic mechanism*it was not yet able to fully ensure the effective functioning of preschool institutions in accordance with the new conditions and the principles of a market economy.

***Keywords:*** *Azerbaijan, education, Preschool, "Education Law" of the Republic of Azerbaijan, reforms in the field of education*

## Giriş

Məktəbəqədər təhsil, təhsilin ilk və vacib pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə və həyati bacarıqlara yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, şəxsiyyət kimi formalaşmasını, məktəb təliminə

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

hazırlığını, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir (Azərbaycan Milli Ensiklopediyası, 2007).

Ötən əsrin 80-ci illərinin sonundan ölkədə başlamış böhranlı vəziyyət müstəqilliyin ilk illərində daha da dərinləşdi. Bu illərdə təhsilin məktəbəqədər pilləsinə büdcədən ayırmalar azaldı, məktəbəqədər yaşlı uşaqların ictimai tərbiyə ilə əhatə olunması səviyyəsi kəskin şəkildə aşağı düşdü. Həmin dövrdə ölkə iqtisadiyyatının iflic vəziyyətinə düşməsi, əhali arasında kütləvi işsizlik və büdcə gəlirlərinin kəskin azalması, mövcud sosial-iqtisadi infrastrukturun dağılması məktəbəqədər təhsil sisteminin də səmərəliliyini nəzərəçarpacaq dərəcədə zəiflətdi (Mərdanov, 2011; Mərdanov, 2011).

**Tədqiqat**

1991-ci il Azərbaycanda məktəbəqədər təhsil müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları yeni inkişaf pilləsinə yüksəlmiş, bu istiqamətdə ardıcıl aparılan dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır (Əliyev, 1997; Mərdanov, 2011).

Müstəqillik illərində Azərbaycanda təhsilin inkişaf tarixini şərti olaraq üç mərhələyə bölmək olar.

Birinci mərhələ 1991–1993-cü illəri əhatə edir. Bu mərhələ təhsil sisteminin tənəzzülü, sovet hakimiyyəti illərində qazanılmış nailiyyətlərdən, mütərəqqi ənənələrdən imtina edilməsi dövrü kimi xarakterizə olunur. Onu da qeyd etmək lazımdır ki, bu dövr həm də təhsil tarixinə milli ideyaların təhsil sisteminə gətirilməsi ilə düşmüşdür (Abdullayeva, 2010).

İkinci mərhələ 1993–2003-cü illəri əhatə edir. Bu mərhələdə sabitləşmə meyillərinin təhsilin inkişafına da nüfuz etməsi, milli təhsil quruculuğu sahəsində ilk addımların atılması, dövlətin təhsilə diqqətinin artması, mütərəqqi və inkişafyönlü qərarların qəbul edilməsi, təhsilin keyfiyyətinə nəzarətin güclənməsi, beynəlxalq əlaqələrin intensivləşməsi, təhsilə investisiya qoyuluşuna başlanması dövrü kimi yadda qalmışdır (Mərdanov, 2011).

Məktəbəqədər təhsil, təhsilin ilk və vacib pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə və həyati bacarıqlara yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, şəxsiyyət kimi formalaşmasını, məktəb təliminə hazırlığını, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edir (Mehrabov, 2010).

Azərbaycanın müxtəlif bölgələrində Təhsil Nazirliyi və digər nazirliklərin 85 məktəbəqədər təhsil müəssisəsi bağlandı ki, onların da 45-i Bakı şəhərinin payına düşürdü. Bundan əlavə, Naxçıvanda 82 müəssisə, Dövlət Neft Şirkətinin tabeliyində olan müəssisələrdən 20-si bağlanmış, respublika üzrə 72 məktəbəqədər təhsil müəssisəsi başqa məqsədlər üçün müxtəlif təşkilatlara verilmişdi. Digər tərəfdən, Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində 242 məktəbəqədər müəssisənin işğal bölgələrində qalması və dağıdılması da ölkədə məktəbəqədər təhsil müəssisələrinin sayının azalmasına səbəb oldu (Azərbaycan Respublikasının Təhsil Qanunu, 2009). Məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinə mane olan əsas səbəblərdən biri də Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20%-ni işğal etməsi nəticəsində 7998 nəfərdən ibarət 1768 qaçqın və məcburi köçkün ailəsinin ölkənin müxtəlif şəhər və rayonlarındakı 362 məktəbəqədər təhsil müəssisəsində məskunlaşması idi. Nəticədə, müstəqillik illərində məktəbəqədər təhsil müəssisələrində uşaqların ictimai tərbiyəyə cəlb olunması səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağı düşdü. Ona görə də həmin illərdə məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsində də azalma tendensiyası müşahidə edilirdi (Azərbaycan Respublikasının Təhsil Qanunu, 1992).

**Bilirik ki, təhsildən yayınma halları dünya ölkələri ilə yanaşı, bizim ölkədə də mövcuddur. Bəs təhsilin hansı pilləsində hansı yayınma halları müşahidə olunur? Səbəbləri nələrdir? Və hansı addımlar atıla bilər? Gəlin birlikdə təhsilin ilk pilləsi olan məktəbəqədər təhsil pilləsindən yayınma halları ilə başlayaq.**

(Açıq Cəmiyyət İnstitutunun «Addım-addım» proqramının respublikanın bir sıra məktəbəqədər tərbiyə müəssisələrində tətbiqi vəziyyəti haqqında, 2000).

Məktəbəqədər təhsil müəssisələri sadəcə işləyən valideynlərin uşaqlarının saxlanılması yeri deyildir. Bunlar, hər şeydən əvvəl, tərbiyə, təlim və inkişaf mərkəzləridir. Ona görə də uşaqların şəxsiyyətinin formalaşmasına, onlarda ilkin həyati bacarıqların yaranmasına yönəlmiş məzmunun müəyyənləşdirilməsi indiki halda diqqət yetiriləcək başlıca məsələlərdəndir. Lakin qeyd etmək lazımdır ki, məktəbəqədər təhsil üzrə mövcud təlim-tərbiyə proqramı (1998) müasir tələblərə cavab vermir. Əksər hallarda mövcud tərbiyə proqramı müvafiq maddi-tədris və metodik baza olmadığından yerinə yetirilmir ki, bu da məktəbəqədər təhsilin müasir inkişaf tendensiyalarına uyğun gəlmir. Buna görə də məktəbəqədər təhsilin məzmunca təkmilləşdirilməsinə və yeniləşdirilməsinə ciddi ehtiyac özünü aşkar şəkildə büruzə verir (Mərdanov, 2011).

Məktəbəqədər təhsil sahəsində ən ciddi problemlərdən biri də pedaqoji heyətlə bağlıdır. Onlar uşaqlarda mənəvi keyfiyyətlərin, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq və həyati bacarıqların formalaşmasında mühüm rol oynayırlar. Maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur. Hələlik Azərbaycanda məktəbəqədər təhsil icbari deyil (Ali təhsil pilləsinin dövlət standartı və proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 2010).

Bir neçə dəfə bununla bağlı təkliflər səsləndirilib. Ekspertlər məktəbəqədər təhsilin olduqca vacib olduğunu bildirirlər (Mərdanov, 2007).

1990-cı illərdə məktəbəqədər təhsil sahəsində mövcud olan əsas problemlərdən biri də müəssisələrin maliyyələşməsi ilə əlaqədardır. Uşaq bağçaları yerli icra hakimiyyəti orqanları tərəfindən maliyyələşdirilir. Bu təhsil pilləsinin inkişafı üçün ayrılan büdcə vəsaitlərinin azlığı bir problemdirsə, həmin maliyyə vəsaitlərinin istifadəsi daha ciddi problemdir (Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasının (Milli Kurikulumun) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 2006). Uzun illərdir ki, bu sahəyə vəsait ayrılmasına baxmayaraq, uşaq bağçaları əsaslı təmir edilmir, avadanlıqlarla təchiz olunmur, ərzaqla təminatın vəziyyəti də qənaətbəxş deyildir. Əlbəttə, səbəblər müxtəlifdir. Səbəblərdən biri də odur ki, Təhsil Nazirliyi məktəbəqədər təhsil müəssisələrinin maliyyələşdirilməsi prosesində iştirak etmir və bu işə müdaxilə etmək imkanları da yoxdur (Azərbaycan Respublikasında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 1992).

Məktəbəqədər təhsilin əhatə səviyyəsinin aşağı olmasının başlıca səbəblərindən biri də ölkənin yaşayış məntəqələrinin 75 %-də uşaq bağçalarının olmaması və məktəbəqədər təhsil xidmətlərinin göstərilməməsidir (Mərdanov, 2011).

Azərbaycan innovativ təhsil proqramlarının tətbiqi ilə məktəbəqədər təhsilin keyfiyyətinin yaxşılaşdırılması sahəsində əhəmiyyətli irəliləyiş nümayiş etdirmişdir. Bununla belə, əsas problemlərdən biri islahatlar prosesinə özəl sektorun kifayət qədər inteqrasiya edilməməsi idi ki, bu da sistemin modernləşdirilməsi prosesini sürətləndirə bilərdi. Bununla yanaşı, beynəlxalq təcrübəyə əsaslanan müəllim hazırlığı mərkəzlərinin yaradılması təşəbbüsü artıq müsbət nəticələr verməyə başlamışdır (Mərdanov, 2010).

Məktəbəqədər təhsil müəssisələri üçün ixtisaslı kadrlar Azərbaycan Dövlət Pedaqoji Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Müəllimlər İnstitutu və onun 11 filialı, Naxçıvan Müəllimlər İnstitutu və 7 kollecdə hazırlanır. Qeyd etmək lazımdır ki, həmin müəssisələrdə kadr hazırlığının səviyyəsi heç də qaneedici deyildir. Bu müəssisələri bitirən məzunlar, bir qayda olaraq, məktəbəqədər təhsilin təşkili sahəsində praktik bacarıqlara malik olmurlar (Mərdanov, 2011; Səmədov, 2010).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev təhsilin cəmiyyətdəki rolunu yüksək qiymətləndirərək demişdir:

"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır."

(H. Əliyev)

## Nəticə

Məktəbəqədər təhsil sahəsində mövcud olan əsas problemlərdən biri müəssisələrin maliyyələşməsi ilə əlaqədardır. Uşaq bağçaları yerli icra hakimiyyəti orqanları tərəfindən maliyyələşdirilir. Bu təhsil pilləsinin inkişafı üçün ayrılan büdcə vəsaitlərinin azlığı bir problemdirsə, həmin maliyyə vəsaitlərinin istifadəsi daha ciddi problemdir. Uzun illərdir ki, bu sahəyə vəsait ayrılmasına baxmayaraq, uşaq bağçaları əsaslı təmir edilmir, avadanlıqlarla təchiz olunmur, ərzaqla təminatın vəziyyəti də qənaətbəxş deyildir. Əlbəttə, səbəblər müxtəlifdir. Səbəblərdən biri də odur ki, Təhsil Nazirliyi məktəbəqədər təhsil müəssisələrinin maliyyələşdirilməsi prosesində iştirak etmir və bu işə müdaxilə etmək imkanları da yoxdur. Son illərdə məktəbəqədər təhsil sahəsində mövcud olan problemlərin aradan qaldırılması, ümumilikdə məktəbəqədər təhsilin təkmilləşdirilməsi istiqamətində beynəlxalq təşkilatlarla birgə müəyyən tədbirlər həyata keçirilmiş, müasir təlim texnologiyalarının tətbiqi sahəsində bir sıra məqsədyönlü işlər görülmüşdür. UNICEF, UNESCO, Açıq Cəmiyyət İnstitutu Yardım Fondu (ACIYF) – Azərbaycan, Ümumdünya Ərzaq Təşkilatı tərəfindən bir sıra layihələr həyata keçirilmişdir. Ölkənin 18 bölgəsində 51 məktəbəqədər təhsil müəssisəsində ACIYF-nin «Addım-Addım» təlim texnologiyasının tətbiqi üzrə müəyyən təcrübə toplanmışdır.

## Ədəbiyyat


1. Abdullayeva, N. (2010, İyun 26). *Ali təhsildə Boloniya sistemi*. Səs qəzeti.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2000, Noyabr 24). *Açıq Cəmiyyət İnstitutunun «Addım-addım» proqramının respublikanın bir sıra məktəbəqədər tərbiyə müəssisələrində tətbiqi vəziyyəti haqqında*. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının materialları.
3. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2010, Aprel 23). *Ali təhsil pilləsinin dövlət standartı və proqramının təsdiq edilməsi haqqında qərar № 75*. https://eqanun.az/framework/19531
4. Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi. (2007). *Azərbaycan Milli Ensiklopediyası*. Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi.
5. Azərbaycan Respublikası. (1992, Oktyabr 7). *Təhsil haqqında Qanun № 324*. https://eqanun.az/framework/7956
6. Azərbaycan Respublikası. (2009, İyun 19). *Təhsil haqqında Qanun № 833-IIIQ*. https://e-qanun.az/framework/18343
7. Azərbaycan Respublikası Prezidenti. (1992, İyul 21). *Azərbaycan Respublikasında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının yaradılması haqqında Fərman № 74*. https://eqanun.az/framework/7553
8. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2006, Oktyabr 30). *Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyasının (Milli Kurrikulumun) təsdiq edilməsi haqqında Qərar № 233*. https://e-qanun.az/framework/11562
9. Əliyev, H. (1997). *Müstəqillik yollarında*. Bakı: Azərbaycan.
10. Mehrabov, A. (2010). *Müasir təhsilin konseptual problemləri* (s. 516). Bakı: Mütərcim.
11. Mərdanov, M. (2011). *Azərbaycan təhsil tarixi* (I cild). Bakı: Təhsil.
12. Mərdanov, M. (2011). *Azərbaycan təhsil tarixi* (II cild, 1920–1991-ci illər). Bakı: Təhsil.
13. Mərdanov, M. (2011). *Azərbaycan təhsil tarixi* (III cild, Müstəqillik illəri). Bakı: Təhsil.
14. Mərdanov, M. (2011, Oktyabr 7). *Azərbaycan təhsili müstəqillik illərində*. Azərbaycan müəllimi qəzeti.
15. Mərdanov, M. (2007). *Davamlı inkişaf və təhsil* (s. 100). Bakı: Çaşıoğlu.
16. Səmədov, A. (2010). *Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı*. Gəncə: Gəncə Dövlət Universiteti.


Daxil oldu: 01.12.2024
Qəbul edildi: 06.03.2025